**Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin**
**QƏRARI**

**№ 12/1**

Bakı şəhəri “08” aprel 2025-ci il

**Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin 2022-ci il 04 fevral tarixli 04/2 nömrəli Qərarı ilə təsdiq edilmiş “Bank hesablarının açılması, aparılması və bağlanması Qaydası”nda dəyişikliklər edilməsi barədə**

“Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında” Azərbaycan Respublikası Qanununun 22.1.17-ci maddəsinə əsasən Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyəti

**QƏRARA ALIR:**

1. Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin 2022-ci il 04 fevral tarixli 04/2 nömrəli Qərarı ilə təsdiq edilmiş “Bank hesablarının açılması, aparılması və bağlanması Qaydası”nda dəyişikliklər təsdiq edilsin (əlavə olunur).
2. Maliyyə bazarlarının hüquqi təminatı departamentinə tapşırılsın ki, bu Qərarın 3 gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim edilməsini təmin etsin.

**Mərkəzi Bankın sədri** **Taleh Kazımov**

“Təsdiq edilmişdir”
Azərbaycan Respublikasının
Mərkəzi Bankı
Qərar № 12/1

08 aprel 2025-ci il

**Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin 2022-ci il 4 fevral tarixli 04/2 nömrəli Qərarı ilə təsdiq edilmiş “Bank hesablarının açılması, aparılması və bağlanması Qaydası”nda dəyişikliklər**

Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin 2022-ci il 4 fevral tarixli 04/2 nömrəli Qərarı ilə təsdiq edilmiş “Bank hesablarının açılması, aparılması və bağlanması Qaydası”nda aşağıdakı dəyişikliklər edilsin:

**1.** 2.6.7-ci yarımbənddə nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 2.6.8-ci və 2.6.9-cu yarımbəndlər əlavə edilsin:

“2.6.8. elektron pulun emissiyası və elektron pul ilə ödəniş əməliyyatlarının icrası ilə bağlı cari hesab - elektron pul təşkilatı tərəfindən “Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında” Azərbaycan Respublikası Qanununun 3.1.5-ci maddəsində nəzərdə tutulan ödəniş xidmətinin göstərilməsi;

2.6.9. elektron pulun emissiyası və elektron pul ilə ödəniş əməliyyatlarının icrası ilə bağlı olmayan digər ödəniş xidmətlərinin göstərilməsi üçün cari hesab - ödəniş təşkilatı və elektron pul təşkilatı tərəfindən “Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında” Azərbaycan Respublikası Qanununun 3.1.1-3.1.4-cü maddələrində nəzərdə tutulan ödəniş xidmətlərinin göstərilməsi.”;

**2.** aşağıdakı məzmunda 4.23-cü bənd əlavə edilsin:

“4.23. "Banklar haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulan qaydada köçürülən (ötürülən/satılan) aktiv və (və ya) öhdəlikləri qəbul edən şəxslərdə həmin aktiv və (və ya) öhdəliklərlə bağlı hesab açılarkən əvvəlki öhdəlik daşıyan şəxs tərəfindən həyata keçirilmiş müştəri uyğunluğu tədbirlərinə və bu Qaydaya uyğun əldə edilmiş sənədlərə güvənilərək bu Qaydanın 4-cü hissəsində nəzərdə tutulan məlumat və sənədlər müştəridən tələb edilməyə bilər.”;

**3.** 5-ci hissə üzrə:

**3.1.** 5.5.2-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

“5.5.2. rezident fiziki şəxslər üçün:

5.5.2.1. gücləndirilmiş elektron imza və video zəng ilə və ya gücləndirilmiş müştəri autentifikasiyası və video zəng ilə.

5.5.2.2. gücləndirilmiş elektron imza və video çəkiliş ilə (bir təqvim ayı ərzində 1000 (bir min) manatadək və ya onun ekvivalentində xarici valyutada mədaxil əməliyyatlarının aparılması məqsədilə açılacaq bank hesabları üçün).”;

**3.2.** aşağıdakı məzmunda 5.5-1-ci bənd əlavə edilsin:

“5.5-1. Bu Qaydanın 5.5.2.2-ci yarımbəndində göstərilən limitdən artıq mədaxil

əməliyyatının aparılması üçün müvafiq hesab üzrə video zəng həyata keçirilməlidir.”;

**3.3.** 5.6-cı bənd aşağıdakı redaksiyada verilsin:

“5.6. Bank hesabı mövcud olan müştərilər tərəfindən həmin bankda məsafədən yeni bank hesabının açılması, o cümlədən hesabın açılmasına dair sənədlərin rəsmiləşdirilməsi aşağıdakı qaydada aparılır:

5.6.1. rezident hüquqi şəxslər və fərdi sahibkarlar, habelə qeyri-rezident fiziki şəxslər üçün gücləndirilmiş elektron imza;

5.6.2. aşağıdakı rezident fiziki şəxslər üçün gücləndirilmiş elektron imza və ya video çəkiliş tətbiq etməklə gücləndirilmiş müştəri autentifikasiyası ilə:

5.6.2.1. ilk hesabını fiziki olaraq (bankın inzibati binasına yaxınlaşmaqla) açmış müştəri;

5.6.2.2. bu Qaydanın 5.5.2.1-ci yarımbəndində göstərilən qaydada hesab açmış müştəri;

5.6.2.3. bu Qaydanın 5.5.2.2-ci yarımbəndində göstərilən limiti aradan qaldırmış müştəri;

5.6.2.4. bu Qaydanın 5.5.2.2-ci yarımbəndində göstərilən qaydada hesab açmış və həmin hesab üzrə mədaxil əməliyyatlarının qalıq limiti daxilində növbəti hesab açmaq istəyən müştəri;

5.6.3. bu Qaydanın 5.5.2.2-ci yarımbəndində göstərilən qaydada hesab açmış və mədaxil əməliyyatlarına limit olmayan növbəti hesab açmaq istəyən rezident fiziki şəxslər üçün gücləndirilmiş elektron imza və video zəng ilə və ya gücləndirilmiş müştəri autentifikasiyası və video zəng ilə.”;

**3.4.** aşağıdakı məzmunda 5.6-1-ci bənd əlavə edilsin:

“5.6-1. Bank bu Qaydanın 5.5.2.2-ci, 5.6.1-ci və 5.6.2-ci yarımbəndlərində nəzərdə tutulan qaydada hesabın açılmasını riskli hesab edərsə, video çəkiliş üsulunu video zəng ilə əvəz edə, hesab yalnız gücləndirilmiş elektron imza ilə açıldıqda isə əlavə olaraq video çəkiliş və ya video zəng üsulunu tətbiq edə bilər.”.

**4.** Qaydaya 5 nömrəli Əlavə üzrə:

**4.1.** “İmza və möhür nümunəsi vərəqəsi” nin Üz tərəfində “SWIFT” sözü “BIC” sözü ilə əvəz edilsin;

**4.2.** “Fiziki şəxsin (fərdi sahibkarın) imza nümunəsi vərəqəsi”nin Üz tərəfində “SWIFT” sözü “BIC” sözü ilə əvəz edilsin.

**5.** Qaydaya 6 nömrəli Əlavə üzrə:

**5.1.** 1-ci hissədə “video zəng, habelə mövcud müştərilərin, həmçinin” sözləri “bu Qaydanın 5.5-ci və 5.6-cı bəndlərində göstərilən qaydada video zəng və ya” sözləri ilə əvəz edilsin;

**5.2.** 2.6-cı bəndə aşağıdakı məzmunda dördüncü cümlə əlavə edilsin:

“Müştəri tərəfindən interfeysə giriş gücləndirilmiş elektron imza istifadə edilməklə həyata keçirildikdə, video eyniləşdirmənin başlanmasından əvvəl SMS OTP göndərilməyə bilər.”;

**5.3.** 6.1-ci bənd ləğv edilsin.

**6.** Qaydaya 7 nömrəli Əlavədə “SWIFT” sözü çıxarılsın və “(SWIFT)” sözündən sonra “və ya Mərkəzi Bank” sözləri əlavə edilsin.